

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 iyul 2021-ci il №59 (2567) https://mod.gov.az Qiyməti 30 qəpik


## Vətən müharibəsi: “Bayraktar”ım, əsgərim!



*Xalqı işğalçılıq müharibəsinə sürükləyən də dövlətdi, ədalətli müharibəyə çağıran da. Dövlətin işğalçılıq siyasəti müharibəyə səbəb olanda, bu və ya digər səviyyədə müharibənin iştirakçısına çevriləndə xalq müharibə istəyir... Bu müharibədə Azərbaycan haqqın tərəfindəydi.*

Səməd Vurğunun bir şeiri söz sərraflarının yaddaşındadı: “Biz hərb istəmirik, hərbə hazırıq!” Yəni, dövlət olaraq Azərbaycan dövləti, xalq olaraq Azərbaycan xalqı hərb - müharibə istəmir, ancaq yadellilərin, torpaqlarımıza göz dikənlərin qara niyyətində tərpəniş yarananda xalqın döyüş əzmi, qələbə ruhu kükrəyir, sərkərdənin döyüş əmri bu kükrəyişin yol göstərəninə döndüyü üçün müharibə istəyi rəmzi qılınc kimi qınından sıyrılır. Müharibə ölümə-itimə, şəhidliyə, dağıntılara, ... səbəb olsa da, xalq müharibəyə qənşər gedir - əli silah tutanlar, dizində taqət, ürəyində təpər olanlar (əslində, xalq!) sərkərdənin döyüş əmrinin icraçısı olur. Vətən müharibəsi başlayanda da belə oldu. Xalqın müharibə istəyi nədən yaranmışdı? Xalq bu günü illərdi gözləyirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində təşəbbüsləri Azərbaycanın bəşəri dövlət olduğunu, danışıqlardan yayınması, status-kvonu saxlama niyyəti Ermənistanın təkcə Azərbaycana deyil, bəşəriliyə düşmən kəsildiyini təsdiqləyirdi. Ermənistan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə də əməl etmirdi, ATƏT-in Minsk Qrupuna daxil olan dövlətlər də onu işğalçılıq niyyətindən çəkindirə bilmirdi. Xalq duyurdu ki, zaman ötdükcə bu qondarma münaqişə dondurulma həddinə yaxınlaşır. Ancaq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qətiyyətlə deyirdi ki, biz torpaqlarımızı mütləq işğaldan azad edəcəyik...

Vətən müharibəsi başlayanda hamı Ali Baş Komandanın döyüş əmrini müharibəni sonlandıracaq "kəsərli qılınc" bildi. Bu səbəblərdən xalq haqlı olduğu üçün müharibə istəyirdi. Bu istəyin mahiyyəti döyüş əzmi idi, döyüş əzminin mahiyyəti - qələbə ruhu, Zəfər.

Vətən müharibəsi ərəfəsində Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu demişdi: "Bütün imkanlarımızla Azərbaycanın yanındayıq". Bu qətiyyət Azərbaycanı sevənlərin inamını əminlik səviyyəsinə yüksəltdi. Vətən müharibəsində Türkiyə Azərbaycanın yanında oldu. Mənəvi dəstəyi hərbi dəstək, hərbi dəstəyi mənəvi dəstək tamamlayır. Türkiyə hərbi sənayesinin istehsalı olan "Bayraktar" Azərbaycan Ordusunun silahlanmasına daxil edilmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "A haber" telekanalına müsahibəsində böyük qürurla dedi: "Çox xoşbəxtik ki, qardaş Türkiyənin inkişaf etmiş hərbi sənaye kompleksi gözəl PUA və zərbə PUA-larını istehsal etməyə başlayıb. Azərbaycan ilk ölkələrdəndir ki, bu zərbə PUA-larını ala bilib. Yalnız Türkiyə istehsallı PUA-lar ilə bir milyard dollar dəyərində olan erməni silahlı texnikası məhv edilib. Müharibənin gedişatını çox dəyişdirib".

Pilotsuz uçuş aparatları müharibədə düşmənin hərbi qüvvələrinin, hərbi obyektlərinin koordinatlarını müəyyənləşdirir, zərbə, yaxud zərbələr endirir, düşmənin hədəflərinin məhv edilməsinin videogörüntülərini yazır, yəni, əməliyyatı "sənədləşdirir". Mayor Səməd Muradov dedi ki, "Bayraktar" davamlı hava kəşfiyyatı aparır, hədəfləri müəyyənləşdirdikdən sonra zərbə endirmək üçün cəbhə xəttinə sürətlə yaxınlaşırdı. Reaksiya müddəti yüksək olduğuna görə qısa müddətdə mövcud hədəflərə təsirli şəkildə müdaxiləni gerçəkləşdirir, hərbi tapşırığı yüksək dəqiqliklə yerinə yetirirdi.

"Bayraktar" çəkdiyi görüntüləri real vaxt rejimində idarəetmə mərkəzinə ötürürdü. Bu, Vətən müharibəsində olduqca əhəmiyyətli idi.

Mayor Səməd Muradov dedi ki, müharibədə qazanılan qələbəni bu və ya digər qoşun növü ilə əlaqələndirmək insafsızlıq olardı. Qələbənin başlıca amili mütəşəkkil komandanlıqdır. Döyüşdə, döyüşlərdə üstünlüyü hansı qoşun növünə hansı əmrin verilməsi təmin edir. Doğrudur, qazanılan Zəfərdə "Bayraktar"ların xidməti böyükdür, ancaq "Bayraktar"ların döyüşə qoşulma məqamlarını komandanlıq müəyyənləşdirirdi. Qazanılan Zəfərdə bütün amillər Ali Baş Komandanın sərkərdəlik qüdrətinin davamı oldu.

Xatırladıq ki, Vətən müharibəsində hamı "Bayraktar"lardan danışırdı. Bu, bənzərsiz sevginin etirafı kimi səslənirdi. Onda televiziyada düşmənin hədəflərinə zərbə endirən "Bayraktar"ın pilotsuz olduğuna az qala adamın inanmağı gəlmirdi. İnsan təfəkkürünün bu səviyyədə qüdrətinə heyrət edirsən. Ona da qürurlanırsan ki, möcüzəmisallı bu uçuş aparatını idarə edən, onun vasitəsilə düşmənin hədəflərini aşkara çıxardan, məhv edən Azərbaycan hərbi qulluqçusudur!

"Bayraktar"larımız çətin hava şəraitində də düşmənin döyüş texnikalarını, canlı qüvvəsini yüksək dəqiqliklə məhv edir, əməliyyat şəraitində üstünlüyə malik olur. Vətən müharibəsində olduqca mükəmməl, dəqiq, müasir uçuş aparatı olan "Bayraktar"ın da, onu idarə edənlərin də nəyə qadir olduğu, qüdrəti təsdiqləndi...

(Ardı 4-cü səhifədə)



Vətənə bağlılıq səadətdi

4-cü səhifədə



“Arzumuza qovuşduq, yurdumuzu azad gördük”

5-ci səhifədə



Bölmələrdə ən müasir səviyyədə sosial şərait yaradılıb

7-ci səhifədə



“Bayraktar”lar üçün müasir döyüş sursatları

8-ci səhifədə

# Müdafiə naziri ABŞ-ın Oklahoma Ştatının nümayəndə heyəti ilə görüşüb





*İyulun 28-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Amerika Birləşmiş Ştatlarının Oklahoma Ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi və həmin ştatın Milli Qvardiyasının komandanı general-mayor Maykl Tompsonun təmsil olunduğu nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan Müdafiə naziri azad edilmiş ərazilərdə, o cümlədən Ermənistan-Azərbaycan dövlət sərhədində yaranmış son vəziyyətə toxunaraq baş vermiş bugünkü insidentlə bağlı onlara ətraflı məlumat verib, gərginliyin artırılmasına görə məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü qeyd edib.

General-polkovnik Zakir Həsənov əməkdaşlığın müxtəlif istiqamətləri üzrə iki ölkə arasında əldə edilmiş müsbət nəticələrdən, Oklahoma Ştatının Milli Qvardiyası ilə Azərbaycan Ordusu arasında qarşılıqlı əlaqələrin cari vəziyyətindən məmnunluğunu ifadə edərək bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Oklahoma Ştatının qubernatoru C.K.Stitt Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfəyə görə minnətdarlığını bildirib, mövcud hərbi əməkdaşlığın genişləndirilməsinin tərəfdarı olduğunu vurğulayıb.

Ötən il qazanılan qələbənin Azərbaycan Ordusunun yüksək hazırlığının göstəricisi olduğunu qeyd edən Oklahoma Ştatının Milli Qvardiyasının komandanı general-mayor M.Tompson şəhid olanların ailələrinə başsağlığı verib.

Görüşdə tərəflər Azərbaycan Ordusu ilə Oklahoma Ştatının Milli Qvardiyası arasında Tərəfdaşlıq Proqramı çərçivəsində keçirilən birgə tədbirlərə dair fikir mübadiləsi aparıblar.

# Müdafiə naziri zabit heyətinin ixtisasartırma və təkmilləşdirmə kurslarının gedişi ilə maraqlanıb







*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti zabit heyətinin ixtisasartırma və təkmilləşdirmə kurslarının gedişi ilə maraqlanmaq üçün ümumqoşun poliqonlarından birinə gəliblər.*

Müdafiə nazirinə məruzə olunub ki, təhsil prosesi çərçivəsində ən yeni nəsil texnikanın istifadəsi üzrə keçirilən dərslərə xüsusi diqqət yetirilir. Bildirilib ki, kurslar zamanı hərbi qulluqçular qoşunların silahlanmasında olan müasir döyüş vasitələrinin taktiki-texniki xüsusiyyətlərini və istifadə qaydalarını öyrənirlər.

Eyni zamanda, hərbi qulluqçular silah və hərbi texnikanın digər müasir nümunələrini də öyrənir, taktikada və döyüş hazırlığının digər fənlərində öz vərdişlərini təkmilləşdirirlər. Qeyd edilib ki, kurslara cəlb olunan gənc zabitlər Vətən müharibəsində iştirak etmiş, döyüş təcrübəsinə malik hərbi qulluqçulardır.

Sonda Müdafiə naziri hərbi qulluqçuların tank və piyada döyüş maşınlarında yerinə yetirdikləri təlim tapşırıqlarını və atış məşğələlərini izləyib.

# Oklahoma Ştatı Milli Qvardiyasının nümayəndə heyətinin ölkəmizə səfəri davam edir



*Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov Amerika Birləşmiş Ştatlarının Oklahoma Ştatının Milli Qvardiyasının komandanı general-mayor Maykl Tompsonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüş zamanı Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında təsdiq olunmuş "Ştatla Tərəfdaşlıq" proqramı əsasında Azərbaycan Ordusu ilə Oklahoma Ştatının Milli Qvardiyası arasında müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın yeni istiqamətləri müəyyən olunub, birgə layihələr müzakirə edilib.

Tərəflər Azərbaycan Ordusu ilə Oklahoma Ştatının Milli Qvardiyası arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

Sonra nümayəndə heyətinin "N" hərbi hissəsinə ziyarəti təşkil olunub.

44 günlük Vətən müharibəsi zamanı şəhid olan hərbi qulluqçuların xatirəsinə salınmış guşə ziyarət olunub. General-mayor M.Tompson Fəxri ziyarətçi və qonaqlar kitabına ürək sözlərini qeyd edib.

Hərbi hissənin iclas zalında brifinq təqdim olunduqdan sonra nümayəndə heyəti "N" hərbi hissəsinin Əməliyyat İmkanları Konsepsiyasına (ƏİK) bəyan edilmiş bölmələrinin fəaliyyəti və onlar üçün yaradılan sosial-məişət şəraiti ilə tanış olub.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkilib.

# Xocalı rayonu ərazisində yeni hərbi hissənin açılışı olub






*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı, qoşun xidmətinin təşkili və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər davam edir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, döyüş növbətçiliyi və qoşun xidmətinin yüksək səviyyədə təşkili, eləcə də şəxsi heyətin məişət şəraitinin təmin edilməsi məqsədilə Xocalı rayonu ərazisində əsaslı təmir edilmiş, müasir avadanlıqla təchiz olunmuş artilleriya hərbi hissəsinin açılışı olub.

Hərbi hissənin xidməti otaqları kondisionerlər, mebellər, müasir tipli sanitar qovşaqları, yataq ləvazimatları, mətbəx avadanlıqları və generatorlarla təchiz olunub.

Hərbi birlik komandiri general-mayor Mayis Bərxudarov yeni hərbi hissənin açılışı münasibətilə Müdafiə nazirinin təbriklərini şəxsi heyətə çatdırıb, onlara xidmətlərində uğurlar arzulayıb.

Azad olunmuş digər ərazilərimizdə yeni hərbi hissələrin tikintisi planlı şəkildə davam edir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**28 iyul 2021 09:57**

İyulun 28-i gecə saatlarında Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonu istiqamətində başladığı təxribatın qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri davam edir.

Bölmələrimiz tərəfindən qarşı tərəfin atəş nöqtələrinin neytrallaşdırılması istiqamətində zəruri addımlar atılmışdır.

Ermənistan ərazisində guya mülki obyektlərə zərərin yetirilməsi barədə xəbərlər yalandır və sırf dezinformasiya məqsədi daşıyır. Ermənistan hərbi-siyasi rəhbərliyi ənənələrinə sadiq olaraq Ermənistan ictimaiyyətini və beynəlxalq aləmi çaşdırmaq üçün yalan məlumatlar yaymaqda davam edir.

Ermənistanın hərbi-siyasi rəhbərliyini iki ölkənin dövlət sərhədində həbri avantüra məqsədi daşıyan təxribatlar və vəziyyəti qəsdən gərginləşdirmək əməllərindən çəkinməyə və sivil qaydada dövlət sərhədinin delimitasiyası üzrə danışıqlara başlamağa çağırırıq.

Bir daha bildiririk ki, Ermənistan-Azərbaycan dövlət sərhədində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət tam olaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Hazırda bu istiqamətdə əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Azərbaycan Respublikasının sərhədlərinin toxunulmazlığını təmin etmək üçün Ermənistanın bütün təxribatlarının qarşısı bundan sonra da qətiyyətlə alınacaqdır.

**28 iyul 2021 10:37**

Ermənistan-Azərbaycan dövlət sərhədində Bakı vaxtı ilə saat 10:00-dan etibarən atəşkəsin elan olunması ilə bağlı Rusiya tərəfinin təşəbbüsü tərəfimizdən qəbul edilmişdir.

Buna baxmayaraq, Ermənistan tərəfi əlavə olaraq tank və 120 millimetrlik minaatanlardan istifadə etməklə vəziyyəti gərginləşdirməkdə və mövqelərimizi atəşə tutmaqda davam edir.

**29 iyul 2021 07:20**

Ermənistan atəşkəsə riayət olunması haqqında razılaşmanı yenidən kobud surətdə pozub.

İyulun 29-u saat 02:45-dən 03:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca kəndi istiqamətində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik kəndi istiqamətindəki mövqelərini avtomat və qumbaraatanlardan atəşə tutub. Mövqelərimiz tərəfə 10-12 ədəd F-1 əl qumbarası da atılıb.

Qarşı tərəf cavab atəşi ilə susdurulub.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Naxçıvan Qarnizonu Qoşunlarında taqım, bölük, batareya komandirləri və müavinləri ilə toplantılar keçirilib



"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən taqım komandirləri, bölük, batareya komandirləri və müavinləri ilə toplantılar keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yeni tədris dövrünə hazırlıq planına uyğun olaraq keçirilən toplantılarda əsas diqqət zabitlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə və komandir keyfiyyətlərinin təkmilləşdirilməsinə yönəldilib.

Zabitlər müxtəlif ixtisaslar, o cümlədən taktiki-xüsusi və rabitə hazırlığı üzrə keçirilən praktiki məşğələlərdə iştirak ediblər.

Qarnizonun Təlim-Tədris Mərkəzində zabitlərə hərbi topoqrafiyadan, hüquq və mənəvi-psixoloji hazırlıqdan nəzəri dərslər keçirilib. Sonda zabitlərin keçirilən dərslər üzrə nəzəri bilikləri və fiziki hazırlıq səviyyələri yoxlanılıb.

Toplantıların yekununda qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanaraq hər bir zabitə fərdi tapşırıqlar və yeni tədris dövrünə hazırlıq üzrə göstərişlər verilib.

*Tarix yazan oğullar*

# Vətənə bağlılıq səadətdi



Vətən şəhidlərinin ruhları qarşısında baş əyirik! Çünki bu gün bütövləşən ölkəmizə, azad olunan torpaqlarımıza görə hamımız o cəsur oğullara borcluyuq...

Belə şəhidlərimizdən biri də baş çavuş Tərlan Gölişad oğlu Eyniyevdir. Şəhid Tərlanın böyük qardaşı Vüsal Eyniyev də Vətən müharibəsində düşməni yurdumuzdan qovan igid oğullardan biri olub. Hər iki qardaş torpaqlarımızın azadlığı uğrunda vuruşdular, Tərlan isə şəhid oldu.

"Vətən o vaxt Vətəndir ki, onun hər qarışı uğrunda canından-qanından keçməyə hazır olan övladları var", - deyənlərə haqq qazandırıram.

Ürəyi hər zaman qələbə və döyüş əzmi ilə döyünən Azərbaycan əsgəri qısa vaxt ərzində üstünlüyü ələ alaraq torpaqlarımızı qarış-qarış, kənd-kənd, şəhər-şəhər mənfur erməni işğalçılarından azad etdi. Qəsbkarlar ordumuzun əks-hücumu qarşısında dayana bilmədilər, canlı qüvvələrini, texnikalarını ataraq qaçdılar.

Müharibənin ilk günlərindən baş çavuş Tərlan Eyniyev döyüşlərə qatıldı. 2020-ci il oktyabrın 4-də Cəbrayıl rayonunun azad olunması uğrunda gedən döyüşlərdə hünər və qəhrəmanlıq göstərdi. Strateji əhəmiyyətli yüksəklik uğrunda gedən döyüşlərdə düşmənin snayperinə tuş gələrək şəhid oldu.

Vəsiyyətinə uyğun olaraq Tərlan Eyniyev 7 oktyabr 2020-ci il tarixdə Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki qəbiristanlıqda dəfn olundu.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə baş çavuş Tərlan Eyniyev ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb.

Şəhid Tərlan Eyniyevin Xəzər rayonunun Şüvəlan qəsəbəsində bir vaxtlar özünün tikdiyi evində muzeyi yaradılıb.

Tezliklə düşmən tapdağından azad olunmuş rayonlarımız bərpa olunacaq, yeni evlər tikiləcək, soydaşlarımız doğma yurdlarına qayıdacaqlar. Bu torpaqlar uğrunda canlarını qurban verən şəhidlərimizin xatirəsi isə həmişə ehtiramla yad ediləcək.

Şəhid Tərlan Eyniyevin atası Gölişad İsmayıloğlu qəhrəman oğlunun xatirələrini özündə əks etdirən "Hərb sənətində psixoloji ruh" adlı əsər yazır. Artıq kitab üzərində tamamlama işləri gedir. Əsərdə şəhid Tərlan Eyniyevin Vətən müharibəsindəki iştirakı və göstərdiyi qəhrəmanlıqlar daha dolğun, daha əhatəli işıqlandırılacaq. Vətənə bağlılıq səadəti Tərlanı daim yaddaşlarda yaşadacaq.

**Mayisə ƏSƏDULLAQIZI**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü**

**(Əvvəli 1-ci səhifədə)**

# Vətən müharibəsi: "Bayraktar"ım, əsgərim!



"Bayraktar"ı idarə edənlərin birinə dedik ki, idarə etdiyin "Bayraktar" düşmənin yerləşdiyi ərazidə müəyyən hündürlükdə, müəyyən sürətlə uçur. Bu, döyüş uçuşudu. Döyüşlərdən on kilometrlərlə uzaqda olsa da, o da döyüşür. PUA, müəyyən mənada, onu idarə edənin əmrlərinin icraçısıdır. Döyüş tapşırığını yerinə yetirmək üçün müşahidələr aparılır. Müşahidə bir qədər gec nəticələnəndə onu idarə edənin hansı duyğular keçirdiyi ilə maraqlandıq. "Təsəvvür edin ki, döyüşçü qarşı tərəfdə düşmən olduğunu bilir, ancaq məhz harada olduğunu müəyyənləşdirməyə çətinlik çəkir. O anlarda döyüşçünün düşüncələrini hansı duyğular sıxırsa, PUA-nı idarə edəni də eyni duyğular sıxır. Düşmənin hərbi obyektinin yerini müəyyənləşdirəndə bu sıxıntıları sevinc yaradan Vətən sevgisi əvəzləyir. Düşmənin hərbi obyektinin məhv edildiyini görəndə özün özünə təşəkkür etmək istəyirsən..."...

Döyüşlər dağlıq ərazilərdə gedirdi, yəni, "Bayraktar"larımız da belə ərazilərdə döyüşürdülər. Həm də payızda. Bu baxımdan pilotsuz uçuş aparatlarını idarə edənlər Vətən müharibəsində kifayət qədər gərgin döyüşlərdə iştirak etdilər, bu döyüşlərdə düşmən ağır itkilərə məruz qaldı.

"Bayraktar"lar döyüşə Vətən müharibəsinin ilk günlərindən cəlb edilmişdi. İctimaiyyət onun uçuşlarından görüntüləri müharibənin ilk günlərindən izləyirdi. Müharibənin ilk günlərindən yaşanılan bu qürurun Zəfərlə süslənəcəyini hamı hiss edirdi. Oktyabrın ilk günlərində televiziyada izlənilən bir süjet hamıya qələbə ovqatı yaşatdı: bəşəri duyğularla yaşayanlar insan ölümünə həmişə təəssüflənir. Müharibə vaxtı heç yerdə, heç zaman düşmən ölümünə təəssüflənməzlər. Onda Zəfərimizin işığını hiss edənlər döyüş texnikasını atıb qaçan düşmənin necə məhv olduğunu görəndə əminliklə "Böyük Qələbəyə az qalıb, Vətən!" deyirdi. Bu nida vətənsevərlikdən, Azərbaycan Ordusunun qüdrətinə inamdan, bir də "Bayraktar"ların döyüşünü gerçəkləşdirənlərimizə əbədiyyən yaşayacaq ehtiramdan rişələnirdi.

Mayor Səməd Muradov "Bayraktar"ı idarə edənlərin hazırlığından danışaraq qeyd etdi ki, bu sahəyə namizəd seçimi olduqca ciddi tələblər əsasında aparılır. Bu tələblər sırasında ilkin şərt sevgidi - Vətənə sevgi, səmalara təmassız sevgi, hərbi xidmətə sevgi. Vətən müharibəsində təsdiqləndi ki, bu sevginin sayımız qədər zərrəsi var. Digər şərtlər də önəmlidir.

Hazırlıq keçənlər, xidmətə başlayanlar vaxtaşırı imtahanlar verirlər. Nəzəri bilikləri simulyasiya mərkəzində təkmilləşir. Mayor Vüsal Məmmədov bildirdi ki, sərbəst uçuşa başlayanlar da vaxtaşırı nəzəri imtahanlar verirlər. Ancaq onlar üçün hər uçuş imtahandır.

Mayor Səməd Muradov Vətən müharibəsinin tarixinə - faktlara, bir də xarici saytlara istinadən dedi ki, Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsi zamanı pilotsuz uçuş aparatlarının istifadəsində böyük uğurlar əldə edib. Məqalədə sonra yazılır ki, Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələri pilotsuz uçuş aparatları ilə güclənmiş qüvvələrə qarşı mübarizə aparmaq potensialına malik deyil. Yəni, Azərbaycan Ordusuna məxsus pilotsuz uçuş aparatları Vətən müharibəsində böyük hərbi gücə malik olub. Bu güc daha da yüksəlməkdədir; kadr hazırlığı, kadrların müntəzəm təkmilləşdirilməsi kimi mühüm vəzifələr planlı şəkildə, böyük məsuliyyətlə yerinə yetirilir.

Ermənistan ordusunda xidmət edən, sağ qalmaq üçün döyüşlərdən qaçan muzdlular Zəfərdən sonra etiraf edirdilər: "PUA-lar əsl kabus idi. Onları görə bilməzsən, eşidə bilməzsən və onlardan qurtuluş yoxdur. Dron nişan alırsa, heç bir şansın yoxdur. Əgər PUA yaxınlaşırsa, sənin cəmi bir neçə saniyən var...". Bu etiraf Vətən müharibəsində Ermənistan ordusunda xidmət edən, döyüşən, həmin bir neçə saniyənin içində döyüşdən uzaqlaşmağa macal tapan bütün muzdluların etirafıdı. Əslində, Ermənistan silahlı birləşmələrinin şəxsi heyətinin etirafıdı...

Mayor Səməd Muradov Rusiyada nəşr edilən "Natsionalnaya Oborona" jurnalında dərc edilən bir məqalədən danışdı. Hərbi ekspert, jurnalın baş redaktoru İqor Korotçenkonun yazdığı məqalə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Zəfərə rəğbətin ifadəsidir: "... Dünyada belə bir nümunə olmayıb ki, bir ordu digəri ilə döyüşərkən bu qədər yüksək dəqiqlikli silahlardan istifadə etsin. Zərbə PUA-ları istifadəsinin miqyasına və intensivliyinə görə bu, dünyada ilk belə haldır". "Bayraktar"ın ünvanına deyilənlər hamımızın könül xoşluğuna döndü. Vətən müharibəsində yaşadığımız qələbə anlarını yenidən yaşadan bu kəlmələr də tarixdi. Həm də rus hərbi ekspertinin etirafı kimi tarixləşən fikirdi...

Hərbi hissədə pilotsuz uçuş aparatlarını idarə edənlərin və digər heyət üzvlərinin əhatəsində 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər paradını xatırlayırıq:

Paradın gedişində "Bayraktar"lar göründü. Dünyanı heyrətləndirən "Bayraktar"lar, düşməni zəbun edən "Bayraktar"lar, erməni muzdlularının müharibənin kabusu kimi xatırladığı, uzun illər unutmayacağı "Bayraktar"lar. Döyüşlər getdiyi vaxtlarda avtobusda bir ağbirçəyin alqışını eşitmişdim: "Hamısını Allah qorusun. Bayraqtutanlarımız (Ana "Bayraktar"ları nəzərdə tuturdu) yağının başına od ələyir. Qələbədən sonra payızın sazağını yara-yara el-obamıza birnəfəsə gedəcəyik..."; Zəfər paradı anaların bu niyyətinin, bu murazının paradıydı. Bu gün hərbi hissənin zabitləri də, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları da Zəfər gününün, Zəfər paradının qürurunun, "Bayraktar"ların qüdrətinin işığında yaşayırıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Bayraktar"ın yaradıcısı Selçuk Bayraktarı "Qarabağ" ordeni ilə təltif etdi. Bu təltif türk dünyasının təltifi kimi yaşadıldı. Həmin gün hamı Doğudan Batıyacan dumanı, buludu çəkilmiş göy üzündə qürurla dalğalanan qoşa bayraq gördü - Azərbaycanla Türkiyənin bayrağını!

Vətən müharibəsində də, indi də var səsimizlə deyirik: "Bayraktar"ım var mənim!"...

**Rəşid HÜSEYNOV**
**əməkdar jurnalist**

# Zəfər Düşərgəsinin iştirakçıları qazilərimizlə görüşüblər





***Azərbaycan və onun Naxçıvan Muxtar Respublikasının Gənclər fondlarının, Türkiyə Gənclik Vəqfinin birgə təşkilatçılığı, ümumilikdə, 200-dən çox gəncin iştirakı ilə "Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi" muxtar respublikada davam edir.***

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, düşərgənin ikinci günü qonaqlar Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar. Burada onlara müalicə mərkəzi ilə bağlı ətraflı məlumat verilib. Daha sonra "Duzdağ" hoteldə düşərgə iştirakçılarının İkinci Qarabağ müharibəsinin qaziləri ilə görüşü keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev bildirib ki, 44 günlük Vətən müharibəsində şücaət göstərmiş qazilərimizlə görüşün məqsədi gənclərimizə örnək olan qəhrəman müharibə iştirakçılarımızın timsalında gəncliyə əsil vətənpərvərlik ideologiyasını aşılamaqdır. Çünki İkinci Qarabağ müharibəsində xalqımız Ali Baş Komandanın ətrafında birləşərək birlik, bərabərlik, bir sözlə, əsil vətəndaşlıq nümayiş etdirdi. Rəşadətli ordumuzun gücü, qüdrəti, qorxmazlığı ilə əzəli-əbədi torpaqlarımız olan Dağlıq Qarabağ Azərbaycana qovuşdu. Vətən müharibəsinin ən çətin günlərində yanımızda olan qardaş Türkiyə Respublikasının daim səsimizə səs verməsi tarixi birlik və bərabərliyin sübutudur.

Gənclər Fondunun könüllüsü, Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin tələbəsi Rəhim Novruzov qeyd edib ki, Türkiyə və Azərbaycan Respublikası prezidentlərinin tarixi Şuşa səfərindən və Şuşa Bəyannaməsi kimi əhəmiyyətli bir sənədin imzalanmasından sonra Azərbaycan-Türkiyə qardaşlığının daha da möhkəmləndirilməsi və ölkə gəncləri arasında sıx əməkdaşlığın yaranması məqsədilə təşkil olunmuş belə tədbirlər hər bir gənc üçün qürurvericidir. Biz həm də ona görə sevinirik ki, bu tədbirdə qalib xalq kimi iştirak edirik. Şanlı ordumuzun və Ali Baş Komandanımızın erməni işğalçıları üzərində qazandığı böyük qələbə çoxəsrlik tariximizin səhifələrinə yazılmış əsil qəhrəmanlıq dastanıdır.

Vətən müharibəsi qazisi, "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunan mayor Təbriz Zeynalov qazilər adından çıxış edərək bildirib ki, dövlətimiz 44 günlük müharibədə Azərbaycan xalqının, onun liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə səbir göstərən xalqımız, nəhayət, qələbəyə nail oldu. Azərbaycan son 2 əsrlik tarixində ilk dəfədir ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxır. Bu bizim üçün böyük qürur və sevincdir. Azərbaycan Ordusunun əldə etdiyi tarixi zəfər dövlət və xalqın mənafeyi baxımından xüsusi əhəmiyyətə malikdir. Uzun illərdən bəri düşmən əlində qalan torpaqlarımızın işğaldan azad edilməsi, ilk növbədə, Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Müharibənin ən şiddətli anlarında belə, qardaş Türkiyə Respublikası bizdən dəstəyini heç zaman əsirgəmədi. Bu tarixin bütün dövrlərində belə olub və olacaq. İnanırıq ki, bu dostluq və qardaşlıq olduğu müddətcə biz heç vaxt məğlub dövlət olmayacağıq.

Sonra Vətən müharibəsi iştirakçıları gənclərin suallarını cavablandırıb.

## Ordenli igidlərimiz

# "Arzumuza qovuşduq, yurdumuzu azad gördük"

*"N" hərbi hissəsində Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıq göstərən kapitan Əsgər Məmmədovla görüşüb söhbət etdik, cəsur zabitin həm xidmət, həm də döyüş yolu ilə yaxından tanış olduq.*




***Vətən müharibəsinin davam etdiyi günlərdə düşmən üzərində qələbənin qazanılması və torpaqlarımızın işğaldan azad olunması naminə bütün zabit və əsgərlərimiz çiyin-çiyinə verərək cəsarət və hünərlə vuruşdular. Ermənilər nə qədər müqavimət göstərməyə çalışsalar da, bu gücün, bu qüdrətin qarşısında dayana bilməyərək məğlub oldular. Hərbçilərimizin hünəri və qəhrəmanlığı sayəsində 44 gün ərzində 28 il erməni işğalında olan torpaqlarımız azad olundu. Ordumuz üçün böyük uğurlarla başa çatan döyüşlər zamanı canlı qüvvələri ilə yanaşı, erməni qəsbkarlarının zirehli texnikaları, avtomobilləri, artilleriya qurğuları və təyyarələri də məhv edildi. İkinci Qarabağ müharibəsinin iştirakçısı olan kapitan Əsgər Məmmədov döyüşlər zamanı erməni işğalçılarına məxsus iki Su-25 hücum təyyarəsini və bir pilotsuz uçuş aparatını dəqiq atəşlə vurub. Təcrübəli zabit kimi düşmən üzərində qələbənin qazanılması naminə bütün bacarığı ilə döyüşüb.***

Kapitan Əsgər Zaman oğlu Məmmədov 25 yanvar 1988-ci ildə Bakı şəhərində anadan olub. 1995-ci ildə 31 nömrəli orta məktəbin birinci sinfinə gedib. 2003-cü ildə səkkizinci sinfi bitirdikdən sonra hərbçi olmaq arzusu ilə C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Bu təhsil ocağında ibtidai hərbi biliklərə dərindən yiyələnib. Hərbi liseyi bitirdikdən sonra 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Qarşılaşdığı sınaqlardan uğurla keçib. Dörd il ali hərbi təhsil ocağında böyük həvəslə oxuyub, zenit-raket vasitələri ixtisasının sirlərinə yiyələnib.

2010-cu ildə kursant Əsgər Məmmədov təhsilini başa vuraraq leytenant hərbi rütbəsi alıb. 2010-2011-ci illərdə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində zabit ixtisas kursunu bitirib. Arxada qalan bir il ərzində gənc zabit hərbi biliklərini daha da təkmilləşdirib. 2011-ci ildə "N" hərbi hissəsində xidmətə başlayıb.

Erməni təxribatı nəticəsində 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsində kapitan Əsgər Məmmədov yaxından iştirak edib, ölkəmizin hava məkanının təhlükəsizliyini qoruyub.

Həmin gərgin günlərdən söz açan kapitan Əsgər Məmmədov dedi ki, uzun illərdən bəri torpaqlarımızın ermənilərin işğalında qalması bir zabit kimi məni çox narahat edirdi. "Ən böyük arzum, istəyim yurdumuzun azadlığı uğrunda vuruşmaq, o yerləri azad görmək idi. 27 sentyabr 2020-ci ildə ermənilər yurdumuza hücum etdilər. Həmin gün "Həyəcan" çağırışı ilə əks-həmlə əməliyyatlarına cəlb olunduq. Əməliyyatların ilk günündən Füzuli istiqamətində vuruşmağa başladıq. Düşmənin hücum etməkdə məqsədi yeni ərazilərimizi ələ keçirmək idi. Ordumuzun cəsur zabit və əsgərləri işğalçılara qarşı böyük cəsarət və hünərlə vuruşurdular. Oktyabrın 17-də düşmən Cəbrayıl rayonunun Soltanlı kəndi istiqamətindən hava sərhədimizi pozaraq Su-25 hücum təyyarəsi ilə mövqelərimizi atəşə tutmağa cəhd etdi. Biz bütün güc və bacarığımızı səfərbər edərək bu cəhdin qarşısını qətiyyətlə aldıq. Dəqiq zərbə ilə qəsbkarların təyyarəsini vurduq. Üç gün sonra - oktyabrın 20-də yağıların bir ədəd pilotsuz uçuş aparatını vurub sıradan çıxartdıq. Getdikcə zəifləyən düşmən ordumuzun uğurlu hücumları qarşısında dayana bilməyərək geri çəkilirdi. Artıq Füzuli və Cəbrayıl rayonları erməni qəsbkarlarından azad olunmuşdu. Döyüşlər Zəngilan və Qubadlı rayonları istiqamətində gedirdi. Oktyabrın 24-də düşmənin daha bir Su-25 hücum təyyarəsini Zəngilan rayonunun Havalı kəndi istiqamətindən vurduq. Hər addımda yağıların zəifləyib gücdən düşdüyünü hiss edirdik. Nəhayət ki, 44 gün davam edən Vətən müharibəsi zəfərlə yekunlaşdı. İllərdən bəri arzusu ilə yaşadığımız günü - torpaqlarımızın işğaldan azad olunduğunu gördük. Çalışacağıq ki, xalqımızı daim qələbələrimizlə sevindirək".

Vətən müharibəsində göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə kapitan Məmmədov Əsgər Zaman oğlu "Qarabağ" ordeninə layiq görülüb.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir.

**Suallar:**

**1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.**

**2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.**

**3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.**

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə həll etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

- daxili xidmət hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;
- qarovul xidməti Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;
- döyüş mühafizəsi və döyüş növbətçiliyi hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir. Hazırda Azərbaycan Ordusunun hərbi hissələri tarixi Zəfərdən sonra da döyüş mühafizəsi və döyüş növbətçiliyi xidmətlərini aparır, torpaqlarımızın düşməndən etibarlı müdafiəsi kimi şərəfli və eyni zamanda, çox çətin bir vəzifəni yerinə yetirirlər. Bu isə həmin hərbi hissələrin şəxsi heyətində yüksək döyüş hazırlığı, möhkəm nizam-intizam, öz postunda ayıq-sayıq xidmət aparmaq, qorxmazlıq, düşmənə nifrət, öz silahına, komandirlərinə inam kimi döyüşçü keyfiyyətlərinin tərbiyə olunmasını tələb edir. Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu hər hansı bir ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə özünü hazırlamalıdır.

**Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi:**

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanması, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hissləri tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, Müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərməkdir.

### Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır.

Mövzuların təxmini adları: "Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının hüquqi və mənəvi normalarının toplusudur" və s.

Komandirlər və ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Hərbi qulluqçularda öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu var. Ona görə də ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda hərbi qulluqçulara köməklik edir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmə tətbiq edilir.

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən yataqxanada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində növbətçiliyin xüsusi növü - "vaxta" xidməti təşkil olunur. Gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır və onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlanclarının, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, Hərbi Andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqları işğaldan azad edərək Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etdi. Şəhidlərimizin və qazilərimizin qanı ilə suvarılmış Vətən torpaqlarının qorunmasında hər bir hərbi qulluqçudan ona həvalə edilmiş vəzifələrin məsuliyyətini dərindən dərk etmək tələb edilir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Əsgər yeməkxanası*

# Bölmələrdə ən müasir səviyyədə sosial şərait yaradılıb

***Bu gün Azərbaycan dünyada inkişaf edən iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də müasir döyüş imkanlarına malik güclü ordusunun olması ilə də diqqəti cəlb edir. Qarşıya qoyulan istənilən tapşırığı çevik, operativ və yüksək dəqiqliklə yerinə yetirən ordumuzun olması olduqca qürurvericidir. Bütün sahələrdə olduğu kimi, Azərbaycanın ordu quruculuğunda da həyata keçirilən islahatlar müsbət nəticələr verib. Dövlətimizin nail olduğu iqtisadi inkişaf və aparılan islahatların nəticəsidir ki, ordumuzun maddi-texniki bazası möhkəmləndirilib. Hazırda Vətənimizin keşiyində dayanan hərbi qulluqçularımız üçün bölmələrdə ən müasir səviyyədə sosial şərait yaradılıb.***



"N" hərbi hissəsində əsgərlərin məişət şəraiti ilə yaxından tanış olmaq məqsədilə yeməkxanaya yollandıq. Yeməkxananın dizaynı, girişdə olan müasir əlyuma yeri, səliqə-sahman, maraqlı təbiət təsvirləri, yeni mətbəx avadanlıqları və s. diqqətimizi cəlb etdi. Burada çalışanların təmiz və səliqəli geyimləri göz oxşayırdı. Əsgər yeməkxanasına gəlişimiz nahar fasiləsinə təsadüf etdiyindən şəxsi heyətin yeməkxananın qarşısında düzüldüyünün şahidi olduq. Sıra ilə düzülmüş əsgərlər komandirlərinin aldıqdan sonra baş geyimini çıxardıb ardıcıllıqla yeməkxanaya daxil oldular.

Yeməkxana ilə tanışlıq zamanı bir daha əmin olduq ki, əsgərlərin gündəlik qidalanması lazımi səviyyədədir. Burada səliqə-sahmana, təmizliyə və koronavirus pandemiyası ilə əlaqədar bütün tələblərə tam riayət edilir. Gündəlik yemək hazırlanması ilə məşğul olan işçi qadınların xüsusi geyimdə olması, izolyasiya tədbirlərinin görülməsi, xüsusi gigiyenik vasitələrdən istifadə olunması da bu qənaəti bir daha gücləndirir.

Yeməkxana növbətçisi 2013-cü ildən ordu sıralarında xidmət edən çavuş Elxan Osmanov ərzaq normalarına uyğun olaraq xörəklər hazırlandığını vurğuladı.

- Bacarıqlı aşpazlarımız menyuya uyğun olaraq milli mətbəximizin gözəl təamlarından - dolma, küftə, plov, düşbərə və s. xörəklər, həmçinin fəslə uyğun salatlar, meyvə şirələri hazırlayırlar. Bişirilən xörəklərin keyfiyyətinə ciddi nəzarət edilir, - növbətçi dedi. Çavuş E.Osmanov onu da qeyd etdi ki, əsgərlərin qidalanması ilk növbədə hərbi hissənin əvvəlcədən müəyyənləşdirilmiş menyusuna əsasən aparılır. Qidalanma zamanı əsgərlərin qidalarının kalorisinə xüsusi diqqət yetirilir. Yeməklərin hazırlanması prosesinə mülki şəxslər, əsasən də qadınlar cəlb olunublar. Bu da yeməklərin ləzzətli və keyfiyyətli olmasına gətirib çıxardır. İndi menyumuzda əsasən yay mövsümünə uyğun olan milli yeməklər bişirilir.

Şəxsi heyətin qida rasionu ilə maraqlanmaq məqsədilə aşpaz Lalə Mustafayevaya yaxınlaşdıq. Öyrəndik ki, bir neçə ildir bu hərbi hissədə işləyir və əsgərlərimizin milli xörəklərlə qidalanması işinə öz töhfəsini verir. Bu gün Azərbaycan Ordusunun və xüsusilə dağlıq ərazilərdə döyüş tapşırığını yerinə yetirən bölmələrin şəxsi heyəti yüksək kalorili qida ilə təmin olunurlar, - deyə Lalə xanım sözə başladı. - Əsgərlərimizin qida rasionuna təbii və qatılaşdırılmış süd, bal, meyvə, kartof, düyü, ət, toyuq əti, balıq, yumurta, müxtəlif növ çörək, bəzi şirniyyat növləri, təbii şirə, bostan və tərəvəz məhsulları və s. daxildir. Bundan başqa əsgərlərə hər gün tərəvəzdən hazırlanmış müxtəlif şorabalar və salatlar da verilir. Bir sözlə, şəxsi heyət üçün nəzərdə tutulmuş qida rasionu son dərəcə zəngindir. Demək olar ki, əsgərlərə milli mətbəximizdə bişən əksər yeməklər verilir. Bu isə əsgərlərimizin dözümlü və güclü olmasını şərtləndirən amildir. Burada qida təhlükəsizliyinə də çox ciddi nəzarət olunur.



Həmkarlarının fikrini təsdiqləyən aşpaz İnarə Əliyeva qeyd etdi ki, aşpazlıq sənəti xüsusi bacarıq tələb edir. "Bu sənətə həvəs adamın gərək qəlbindən gəlsin. Aşpaz əsgərlərin qidalanmasının ilk növbədə hərbi hissənin hərbi hazırlıq planı əsasında aparıldığını bildirdi. Bu gün torpağını, Vətənini qoruyan əsgərin xidmətində dayanmağın özü xidmətin ən şərəflisidir. Otuz illik torpaq həsrətimizə son qoyaraq bizlərə Qələbə sevinci yaşadan əsgərlərimizin xidmətində dayanmaqla mənəvi rahatlıq tapıram. Onların hər birini öz doğma övladım bilirəm".

Əsgərlərin yeməklərinin keyfiyyətini öyrənmək məqsədilə onlara yaxınlaşdıq. Əsgərlər Teymur Alızadə, Urxan Verdiyev, Amil Xəlilov və Tural Məmmədov milli yeməklərin keyfiyyətindən razılıqlarını bildirdilər və ev yeməklərindən fərqlənmədiyini qeyd etdilər. Əsgərlər onu da bildirdilər ki, qabların yuyulması, yeməkxananın təmizlənməsi prosesindən tutmuş yeməklərin bişirilməsinə kimi bütün təsərrüfat işlərini mülki işçilər görür. İndi bizim öhdəmizə bir iş düşür: "Şəhid qardaşlarımızın canı bahasına azad olunan torpaqlarımızı göz bəbəyimiz kimi qorumaq, Vətənin müdafiəsində daim ayıq-sayıq dayanmaq".

**Leytenant
Oruc MUSTAFAYEV
"Azərbaycan Ordusu"
fotolar
çavuş
Rəşad ƏMRAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ-la Rusiya arasında silahların ləğvinə dair yeni danışıqlar başlayır



ABŞ və Rusiyanın dövlət başçılarının Cenevrədə keçirilən Zirvə toplantısından altı həftə sonra iki ölkə arasında silahların ləğvinə dair danışıqların yeni mərhələsi başlayır.

Prezidentlər Co Bayden və Vladimir Putinin iyunun 16-da razılaşdırdıqları kimi, danışıqlarda əsas mövzu strateji sabitlik məsələlərini müzakirə etməkdir.

Cenevrədə keçirilən birgünlük danışıqlar qlobal təhlükəsizlik üçün mühüm siqnal hesab edilir. Görüşdə gələcək danışıqların əsas mövzuları da müəyyənləşdirilməlidir. Danışıqlara müsbət təkanı isə tərəflər arasında qüvvədə olan START müqaviləsi (Strateji Hücum Silahlarının Azaldılması və Məhdudlaşdırılması Tədbirləri haqqında Müqavilə START-Strategic Arms Reduction Treaty) verməlidir.

## Əfqanıstanda "Taliban" hərəkatının hücumu nəticəsində təhlükəsizlik qüvvələrinin səkkiz əməkdaşı həlak olub



Əfqanıstanın şərqində "Taliban" hərəkatının nəzarət-buraxılış məntəqəsinə hücumu nəticəsində təhlükəsizlik qüvvələrinin səkkiz əməkdaşı həlak olub, üçü isə yaralanıb.

Hadisə Nanqarhar əyalətində baş verib. Döyüşlər zamanı "Taliban" hərəkatının beş üzvünün də öldürüldüyü bildirilir.

Qeyd edək ki, Əfqanıstanda hökumət qüvvələri ilə kənd yerlərində əhəmiyyətli əraziləri ələ keçirən və böyük şəhərlər uğrunda döyüşlər aparan "Taliban" hərəkatı arasında qarşıdurma davam edir. 2020-ci il sentyabrın 12-də Qətərin paytaxtı Dohada Əfqanıstan hökuməti ilə "Taliban" hərəkatı arasında başlayan sülh danışıqları hələlik heç bir nəticə verməyib. Bu il aprelin 14-də ABŞ Prezidenti Cozef Bayden Birləşmiş Ştatlar tarixində ən uzun sürən xarici hərbi kampaniyaya çevrilən Əfqanıstandakı əməliyyatı başa çatdırmaq barədə qərar qəbul edib. "Taliban" hərəkatı isə xarici ölkə qoşunlarının Əfqanıstandan çıxarılması fonunda bütün cəbhə boyu irimiqyaslı hücum əməliyyatlarına başlayıb.

## ABŞ hərbi hava qüvvələrinə məxsus helikopter Yaponiyada qəza enişi edib



İyulun 27-də ABŞ hərbi hava qüvvələrinə məxsus helikopter Yaponiyanın cənub-qərbində yerləşən Miyazaki prefekturasında qəza enişi edib.

Hadisə Kuşima şəhərində baş verib. Bildirilir ki, heyətin iki üzvü xəsarət almayıb, həmçinin helikopterə də güclü ziyan dəyməyib.

Hazırda hadisənin baş verməsi səbəbləri aydınlaşdırılır.

## ABŞ Gürcüstana yüzlərlə hərbçi göndərir



ABŞ Gürcüstanda keçiriləcək "Agile Spirit 2021" (Çevik ruh) hərbi təlimlərində iştirak etmək üçün çoxlu sayda hərbçi göndərəcək.

Bu barədə Gürcüstan Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilir ki, ABŞ, həmçinin Almaniyadakı Ramştayn aviabazasından Gürcüstana "Blek hovk" helikopterlərini də gətirib.

Qeyd edək ki, iyulun 26-da başlayan "Çevik ruh" təlimi avqustun 6-na qədər davam edəcək. Təlimdə 15 ölkədən 2500 hərbçinin iştirakı nəzərdə tutulub.

**AZƏRTAC-ın materialları əsasında**

# “Ehtiyat zabit hazırlığı kursu”na növbəti qəbul başlayır

Müdafiə Nazirliyinin hərbi hissələrində zabit vəzifələrdə həqiqi hərbi xidmət keçmək istəyən müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, 28 yaşınadək olan vətəndaşlar avqustun 9-dan 30-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində (AO TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.



"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət edən vətəndaşlar AO TTM-də fəaliyyət göstərən qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir. Komissiyanın qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər müvafiq ixtisaslar üzrə kursa qəbul edilir.

Kursu müvəffəqiyyətlə başa vuran kursantlara "leytenant" hərbi rütbəsi verilərək həqiqi hərbi xidmətə qəbul olunmaları barədə bağlaşma bağlanır və onlar ixtisaslarına uyğun vəzifələrə təyin olunurlar.

Kursa qəbul olunmaq istəyən namizədlər AO TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 1 ədəd;
- xarici dövlətlərdə təhsil almış namizədlər üçün, ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surəti ilə yanaşı, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti - 1 ədəd;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 1 ədəd;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 1 ədəd;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda) - 1 ədəd;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 1 ədəd;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə);
- psixiatrik, nevroloji, narkoloji, vərəm və dərizöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi haqqında arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 1 ədəd.

**Qeyd:** Məhkumluğu olan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi)

**Telefon:** (012) 538-85-62

**Müraciət etmə vaxtı:** 2021-ci il avqustun 9-dan 30-dək hər gün (bazar günü istisna olmaqla) saat 09:00-dan 17:00-dək.

## Hərbi texnikalar, silahlar

# “Bayraktar”lar üçün müasir döyüş sursatları




Türkiyədə istehsal edilən müasir kəşfiyyat-hücum pilotsuz uçuş aparatları Roketsan şirkətinin MAM ailəsindən olan idarəolunan aviasiya bombalarını daşımağa qadirdir. Bu xətt çərçivəsində öz xüsusiyyətlərinə və imkanlarına görə fərqlənən üç növ döyüş sursatı yaradılıb. Onlardan biri MAM-T döyüş sursatıdır. MAM seriyasından (Mini Akıllı Mühimmat - "Ağıllı mikro döyüş sursatları") olan aviasiya bombaları əsasən, pilotsuz uçuş aparatlarında istifadə edilmək üçün nəzərdə tutulub. Layihənin əsas məqsədi yüksək döyüş effektli və az çəkili döyüş sursatlarının yaradılmasıdır. Misal üçün pilotsuz uçuş aparatı Bayraktar TB2 150 kiloqrama qədər silah daşımağa qadirdir. Bu da ona HHQ-nin əsas bomba növlərindən istifadə etməyə imkan vermir. Bu yaxınlara kimi MAM ailəsində müxtəlif taktiki-texniki xüsusiyyətlərə malik cəmi iki döyüş sursatı var idi. Uzunluğu bir metr, çəkisi isə 6,5 kiloqram olan MAM-S bombası mərmi-fuqas döyüş hissəsini və yarımaktiv özütuşlanan lazer başlığını daşıya bilirdi. MAM-S bombasının uçuş uzaqlığı 8 kilometr təşkil edirdi. Onun ardınca çəkisi 22 kiloqram olan daha ağır çəkili MAM-L aviasiya bombası hazırlandı. Bu sursat peyk naviqasiyasından, mərmi və termobarik döyüş təchizatından istifadə etmək imkanına malikdir. Onun uçuş uzaqlığı 14 kilometrə qədərdir.

Roketsan şirkətinin MAM-T bombası ölçüsünə, çəkisinə, taktiki və texniki xüsusiyyətlərinə görə digər bombalardan fərqlənir. MAM-T aviasiya bombası geniş zərbə dairəvi yerüstü hədəfləri məhv etmək gücünə malikdir. Bu yaxınlarda istehsalçı şirkət müasir silahın uçuş sınağının keçirilməsi haqqında məlumat verib. Perspektiv pilotsuz uçuş aparatı Bayraktar Akıncı təcrübəli MAM-T bombasının atışını həyata keçirib və qeyd olunmuş hədəfi məhv edib. Bu həm müasir bomba üçün, həm də pilotsuz uçuş aparatı üçün ilk "döyüş" epizodu olub. MAM seriyasından olan aviasiya bombalarından nəinki pilotsuz uçuş aparatlarında, həmçinin qırıcı-bombardmançılarda da istifadə olunacaq. Öz xüsusiyyətinə və xarici görünüşünə görə MAM-T aviasiya bombası digər yüngül bombalardan fərqlidir. Onun gövdəsinin diametri 230 mm, uzunluğu 1,4 metr, çəkisi isə 94 kiloqrama qədərdir. Bomba inersiya və peyk naviqasiyası ilə təchiz edilib. Stasionar və hərəkət edən obyektlərin axtarılması imkanına malik olması haqqında da məlumat verilib. Onun əsas uçuş xüsusiyyətləri hava platformasından - daşıyıcıdan-hündürlükdən və uçuş sürətindən asılıdır. Mövcud və perspektiv pilotsuz uçuş aparatları istifadə etdiyi bombaları 30 kilometrlik məsafəyə qədər atmağa qadirdilər. Yüngül zərbə təyyarələri üçün bu parametr 60 kilometr təşkil edir, yüksək səsli qırıcılar isə hədəfə 80 kilometrlik məsafədən hücum edə bilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan sumoçuları Polşada keçirilən Avropa birinciliyində beş medal qazanıblar



Azərbaycan sumoçuları Polşanın Siedlce şəhərində keçirilən kadetlər və yeniyetmələr arasında Avropa birinciliyində iştirak ediblər.

Yarışda ölkəmizi kadetlər arasında təmsil edən Sabir Qarayev bütün rəqiblərini qabaqlayaraq qızıl medalı qazanıb. S.Qarayev yeniyetmələrin yarışında isə gümüş medala sahib olub.

Digər idmançımız Nuhan Müzəfferov da finalda məğlub olaraq gümüş medalla kifayətlənib. Alim Balaşlı və Tamerlan Bağırov isə bürünc medal qazanıb.

Komandamız yarışda Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayevin rəhbərliyi altında mübarizə aparıb.

## Azərbaycan boksçusu Məhəmməd Abdullayev Tokio Olimpiadasında mübarizəni dayandırıb



Azərbaycan boksçusu Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) Tokio Olimpiadasında mübarizəni dayandırıb.

Təmsilçimiz ikinci döyüşündə özbəkistanlı dünya və üçqat Asiya çempionu Baxodir Jalolov ilə qarşılaşıb. Döyüş boksçumuzun məğlubiyyəti ilə başa çatıb.

Daha əvvəl bokçularımızdan Tayfur Əliyev (57 kq) və Lorenso Sotomayor (69 kq) da Olimpiadaya erkən vida ediblər.

## “Neftçi” mübarizəni UEFA Avropa Liqasında davam etdirəcək



Bakının "Neftçi" futbol klubu UEFA Çempionlar Liqasında mübarizəni dayandırıb.

İyulun 28-də Bakı təmsilçisi turnirin ikinci təsnifat mərhələsinin cavab oyunları çərçivəsində Yunanıstanın "Olimpiakos" komandasını qəbul edib.

"Bakcell Arena"da keçirilən matçda "Neftçi"nin start heyətində Aqil Məmmədov, Mamadu Mboc, Voislav Stankoviç, Emin Mahmudov, Sezar Meza Kolli, Harramiz Soareş, Romen Bask, Yusuf Laval, Ömər Buludov, Samir Buqrin və Mamadu Kane yer alıblar.

Yunanıstan təmsilçisinin heyətində isə Konstantinos Tsolakis, Ruben Semedu, Ahmed Hassan, Pyer Kunde, Giorqos Masuras, Husseynu Ba, Svetozar Markoviç, Kenni Lala, Matyö Valbuena, Pape Sisse və Vasilis Surlis meydana çıxıblar.

İspaniyalı baş hakim Rikardo de Burqosun idarə etdiyi oyun "Olimpiakos"un minimal hesablı qələbəsi ilə yekunlaşıb - 1:0. Belə ki, matçın 15-ci dəqiqəsində Giorqos Masuras fərqlənib.

Yunanıstanda keçirilən ilk görüşdə də "Neftçi" rəqibinə 0:1 hesabı ilə uduzub. İki oyunun nəticəsinə görə, Yunanıstan klubu Çempionlar Liqasının növbəti mərhələsinə adlayıb. "Neftçi" isə mübarizəni UEFA Avropa Liqasında davam etdirəcək. Bakı klubunun turnirin üçüncü təsnifat mərhələsində rəqibi HİK (Finlandiya) olacaq. Flaqman ilk oyunu avqustun 5-də evdə, cavab matçını isə bir həftə sonra səfərdə keçirəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Baş redaktor vəzifəsini icra edən
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Növbətçi
kapitan
Ruslan HƏSƏNZADƏ

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 396
Nüsxə 4009